# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyəyə başsağlığı verib



Milli Məclisin Sədri Sahibə Qafarova İstanbul şəhərində törədilmiş partlayışla əlaqədar Türkiyəyə başsağlığı verib. Spiker bununla bağlı özünün twitter səhifəsində paylaşım edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin sədri partlayış nəticəsində həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyəyə dərin hüznlə başsağlığı verib, xəsarət alanlara şəfa diləklərini ifadə edib.

***"Azərbaycan"***

---

Azərbaycan.- 2022.- 15 noyabr.- S.2.